# *FİLOLOGİYA ELMLƏRİ*

## Qaqauz və türkmən dillərinin təkamül tarixi və səciyyəvi xüsusiyyətləri

**Qubad Cəbrayilov**
*AMEA Nəsimi adına Dilçilik İnstitutu*
*"Türk dilləri" şöbəsinin doktorantı*
**E-mail:** gubad88@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., dos. Z.M. Əliyeva,
filol.ü.e.d., dos. N.Ə. Əliyeva

**Açar sözlər:** oğuz qrupu, xarakter xüsusiyyətləri, oğuz qrupu türk dillərinin yaranması, qədim peçeneq dili, qrammatik tərkib, dilönü saitlər, dilarxası saitlər, Balkan yarımadası, qaqauz dilinin qrammatika və leksikası

**Ключевые слова:** огузская группа, характерные особенности, происхождение тюркских языков огузской группы, древний печенежский язык, грамматический состав, переднеязычные гласные, заднеязычные гласные, Балканский полуостров, грамматика и лексика гагаузского языка

**Key words:** the Oguz group, characteristic features, origins of the Oguz group of Turkic languages, the ancient Pcheneg language, grammatical structure, front vowels, back vowels, Balkan peninsula, lexicon and grammar of the Gagauz language

VIII əsrdə Orxon çayı sahillərində yerləşən qədim Tukyu dövlətinin süqutundan sonra bir çox türk qəbilələri Şərqdən Aral gölü sahillərinə getdilər. Beləliklə, Oğuz-Türkmən yarımqrupu tarixən qədim oğuz dilini özündə ehtiva edir. Bu dil Mahmud Kaşğarlının lüğətində də qeyd olunmuşdur. Oğuz-Türkmən yarımqrupuna müasir Türkmən dili və Rusiya Federasiyasının Stavropol vilayətində yaşayan truxmenlərin dili daxildir. Bu yarımqrupun dilini Oğuz-Səlcuq yarımqrupundan fərqləndirən aşağıdakı xüsusiyyətlər vardır:

I. 1) Oğuz qrupu türk dillərinin fonetik strukturundakı dişarası "S/z" samitlərinin tələffüzü türkmən və türk dillərində fərqlidir.

| Türkmən dilində | Türk dilində | Azərbaycan dilində |
|---|---|---|
| *Tsöz* | *Söz* | *Söz* |

2) Türkmən dilində sözün önündə tələffüz olunan "b" qoşadodaq samiti türk dilində və Azərbaycan dillərində "v" samiti ilə əvəz olunur.

| Türkmən dilində | Türk dilində | Azərbaycan dilində |
|---|---|---|
| *Ber* | *Ver* | *Ver* |

3) İlkin uzun saitlərin tələffüzü.

Bu xüsusiyyət oğuz qrupu türk dillərinə uzaq Şərq Regionunda olan qədim dillərin (yakut və tuva dillərindən) keçmişdir. Yəni mənşəcə eyni olan bu dillərdə bəzən çox qədim xüsusiyyətlər qorunub saxlanılır.

4) Sözün ortasında "ğ" samitinin işlənməsi Türkmən dilinə xas fonetik xüsusiyyətdir. Türk və Azərbaycan dillərində bu xüsusiyyət yoxdur.

| Türkmən dili | Azərbaycan dili | Türk dili |
|---|---|---|
| *Bolğon* | *Ol* | *Bol* |

5) Söz kökündə "bol" və "ol" variantları Türkmən dilində paralel işlənir. Türk və Azərbaycan dillərində bu varianta "OL" formasında təsadüf olunur.

6) I şəxsin təkində işlənən şəxs əvəzliyinin strukturunda Türkmən və Azərbaycan dillərində Türk dilindən fərqli olaraq "b" samiti əvəzinə "m" səsi tələffüz olunur.

| Türkmən dili | Azərbaycan dili | Türk dili |
|---|---|---|
| *Men* | *Mən* | *Ben* |

7) Oğuz-Səlcuq yarımqrupundan olan dilindən fərqli olaraq Türkmən dilində sözün önündə kar "k" samiti əvəzinə "q" samiti işlənir. Türkmən dilində "qıyz" — Türk dilində "kız" tələffüz olunur.

II. Oğuz qrupu türk dillərinin qrammatik quruluşunda da müəyyən fərqli cəhətlər müşahidə olunur.

1) Oğuz qrupu türk dillərinin Oğuz-Səlcuq yarımqrupuna daxil olan türk dilində feili-sifətlərin "-dık/-dik; -mış/-miş" keçmiş zaman formalarına nisbətən "-an/-ən; -ğan/-qen" formaları daha çox işlənir. 2) Oğuz-Səlcuq yarımqrupunda gələcək zaman feili-sifətlərinin "-mar/-mer; -maz/-mez" formaları Türkmən dilində dominant mövqe tutur. Türk dilində isə gələcək zaman feili-sifətlətində "-mar/-mer" formaları işlənmir. 3) Türkmən dilində indiki zaman şəkilçilərinin tərkibində Türk dilindən fərqli olaraq "o" səsi əvəzinə "a" tələffüz olunur.

| Türkmən dili | Azərbaycan dili | Türk dili |
|---|---|---|
| *Qelyar* | *Gələr* | *Geliyor* |

4) Gələcək zaman şəxs şəkilçilərində Türk və Azərbaycan dillərindən fərqli olaraq Türkmən dilində "A" səsi itir:

| Türkmən dili | Azərbaycan dili | Türk dili |
|---|---|---|
| *Verjek* | *Verəcək* | *Verecek* |

5) Bəzi feili-bağlama formalarında Türkmən dilində "y" səsi itir:

| Türkmən dili | Azərbaycan dili | Türk dili |
|---|---|---|
| *Okup vermer* | *Oxuyub verməyib* | *Okuyup vermiyor* |

X-XI əsrlərin oğuz dili tarixən bütün oğuz dillərinin kök dilini pradilini özündə ehtiva edirdi. Sonrakı təkamül dövründə bu pradildən üç dil şaxəsi ayrıldı:

1) Şərqi Oğuz dilləri budağı. Buradan türkmən və stravropol türkmənlərinin dili — truxmen dili yarandı. 2) Şimali Oğuz dilləri budağı. Buradan qədim uzların və peçeneqlərin dili, onların əsasında isə müasir qaqauz dili və balkan türklərinin dili təşəkkül tapdı. 3) Cənubi oğuz dilləri budağı. Buradan səlcuq dili, onun əsasında isə qədim Azərbaycan və qədim Osmanlı dilləri və ən nəhayət bu dillərin əsasında müasir Azərbaycan və Türk dilləri yarandı. Krım-Tatar dilinin cənub dialekti də bu yarımqrupa daxildir.

Beləliklə, müasir oğuz dilləri genetik baxımdan X-XI əsrlərin oğuz dillərindən, o da öz növbəsində Orxon-Yenisey abidələrinin dili olan qədim oğuz dilindən təşəkkül tapmışdır. Şərqi oğuz dilləri Türkmən və truxmen dilləridir. Türkmən dili müasir Türkmənistan Respublikasının dövlət dilidir. Müasir Türkmən dili XX əsrin əvvəllərindən dövlət dili kimi formalaşmağa başlamışdır. Bu ədəbi dil dialektlərin əsasında formalaşmışdır.

Türkmən dilinin dialektləri 2 qrupa bölünür: Birinci qrupa-yomud, göklen, salır, sarık, ersari dialektləri daxildir. İkinci qrupa-İran və Özbəkistanla həmsərhəd olan dialektlər: nohurlu, anaulu, hasarlı, nezerim daxildir. Bu dialektlər arasında fonetik fərqlər mövcuddur. Xüsusən indiki zamanın şəkilçiləri fərqlidir. Məsələn: Yomud dialektində indiki zaman "Alyar// alyaar"; "gelyər//gelyəər"; tekin və salar dialektlərində "alya//alyaa"; "geliə//geliəə";ersari dialektində "alyor// alyoor" "gelyor//gelyoor"; sarık dialektində "alor//aloor"; "gelor//geloor" formalarında işlənir.

Beləliklə, bu qəbilə dilləri əsasında XII əsrdə Monqol işğalına qədər Orta Asiyada ədəbi dil yaranmışdı. Bu dilin formalaşmasında Türkmən dilinin də özünəməxsus rolu var idi.[1. 41-45]

Həmin ədəbi dilin abidələri arasında Hoca Əhməd Yasəvinin əsərlərini göstərmək olar. XV-XVII əsrlərdə qədim Türkmən dilinin təkamülündə o dövr Orta Asiyanın ümumi ədəbi dili-qədim özbək dilinin xüsusi rolunu qeyd etmək lazımdır.

XVII-XVIII əsr ədibləri Əbül Qazı Xanın "Şəcəreyi-türkmən" salnaməsi, Abdu-s-Səttar Qazının, Azadinin, Məhtimqulunun, Zəlilinin, Qaibinin əsərləri bu dildə yazılmışdır [2, s. 61-68].

Truxmen dili

Bu dil Rusiya Federasiyasının Stavropol vilayətində yaşayan türkmənlərin dilidir. Çar Rusiyası dövründə Türkmənistandan Şimali Qafqaza və Rusiyanın Stavropol vilayətinə köç edən türkmənləri truxmenlər adlandırırdılar. Truxmenlər əsasən Türkmənistanın Çavdur, Sonç xadır və Ikdır qəbilələrinə aid edilirlər. Beləliklə, Truxmen dili əsasən türkmən dilinin xüsusiyyətlərini saxlasa da, qıpçaq qrupu dillərindən olan noqay dilinin təsiri ilə müəyyən dərəcədə dəyişmişdir. Truxmen dili öz fonetik, morfoloji və leksik xüsusiyyətlərinə görə Türkmən dilinin bir dialekti sayıla bilər.

Truxmen dilinə noqay dilinin təsiri ilə onda bəzi dəyişikliklər baş vermişdir:

1. Sözönü uzun tələffüz olunan saitlər nisbətən qısa tələffüz olunur:

| Türkmən dili | Truxmen dili |
|---|---|
| *Aaç, aaş-aş* | *Aç//aş* |
| *Yool-yol* | *Yol* |
| *Taaşla* | *Daşla (daş ,ot)* |

2. Dodaq saitlərinin ahəng qanununun tədricən itməsi:

| Türkmən dili | Truxmen dili |
|---|---|
| *Oturon* | *Oturan* |

| | |
|---|---|
| *Köpök* | *Köpək* |

3. Dişarası samitlərin dilönü samitləri ilə əvəz olunması:

| Türkmən dili | Truxmen dili |
|---|---|
| *Goz* | *Soz* |

4.Söz önündə cingiltili samitlərin karlaşması:

| Türkmən dili | Truxmen dili |
|---|---|
| *Daaş* | *Taş* |
| *Etun* | *Edun (edərək)* |

II.Türkmən və Truxmen dillərinin qrammatik quruluşunda da müəyyən fərqlər hiss olunur:

1. Türkmən dilindən fərqli olaraq truxmen dilində “N”, “M” sonor səslərindən sonra cəm şəkilçisi “-nar//-ner” şəklində müşahidə olunur.

2. Türkmən dilindən fərqli olaraq truxmen dilində gələcək zaman feili-sifətinin inkar forması bir variantda verilir:

| Türkmən dili | Truxmen dili |
|---|---|
| *-mar//-mer* | *-mas//-mes* |
| *-mas//-mes* | |

3. Türkmən dilindən fərqli olaraq bəzi feil formalarının özünəməxsus şəkildə işlədilməsi:

| Türkmən dili | Truxmen dili |
|---|---|
| *Barar* | *Baradurın* |
| | *Baraduran* |

Oğuz-Bulqar qrupu

Türk dillərinin Oğuz-bulqar qrupuna qədim peçeneqlərin və uzların, müasir dillərdən isə qaqauzların və balkan türklərinin dili daxildir. Qədim peçeneq və uz qəbilələrinin dilinə qonşu qıpçaq və bulqar dilləri də təsir göstərirdi. Lakin bununla bərabər Oğuz-Bulqar qrupunun əsas lüğət tərkibini qədim Oğuz dili təşkil edirdi. Peçeneq dili barədə məlumatlara Y.Nemetin, A.N.Kuratın, Q.İlinskinin, D.A.Rosovskinin əsərlərində rast gəlinir [3., s. 91-96].

Oğuz-Bulqar yarımqrupunu müasir dillərdən Qaqauz dili və Balkan türklərinin dili təşkil edir. Qaqauz dilində Ukrayna və Moldoviya, eyni zamanda Şərqi Bolqarıstan və Rumınіya ərazisində yaşayan qaqauzlar danışırlar.

Ərazi baxımından pərakəndə halda yaşamaları Qaqauz dilinin fərqli dialekt və şivələrə bölünməsinə səbəb olmuşdur [4, s. 21-25]. Qaqauz dili dialektlər baxımından az öyrənilmişdir. Qaqauz dilinin dialektləri yalnız əsasən leksik baxımdan fərqləndirilir. Şərqi qaqauzlar və ya Bolqar qaqauzlarının dilinə slavyan və roman dillərindən, qərbi qaqauzların dilinə isə yunan dilindən çoxlu sayda söz keçmişdir. Qaqauz dilində balkan türklərinin hodjalı, tozluklu, herlovlu, qızılbaş, yuruk, qaramanlı və surquç tayfaları da danışır.

Qaqauz dili daxil olduğu oğuz qrupu türk dillərinin bütün səciyyəvi xüsusiyyətlərinə malik olsa da,bəzi cəhətləri ilə onlardan fərqlənir. Bu fərqli cəhətlər hansılardır ?

1. Dilönü saitlərin qarşısında işlənən samitlərin yumuşaq tələffüz olunması. Bu xüsusiyyət qaqauz dilində qıpçaq elementlərinin mövcud olduğunu sübut edir. Qaqauz dilində dilönü saitlərinin əvvəlində dilönü saitlər deformasiya olunaraq dilarxası saitlərə çevrilir. Bu zaman həmin saitin qarşısında işlənən samit daha yumşaq tələffüz olunur. Məsələn:

| Qaqauz dili | Türk dili | Azərbaycan dili |
|---|---|---|
| *Ban* | *Ben* | *Mən* |
| *Eva* | *Eve* | *Evə* |
| *Darmış* | *Dermiş* | *Deyərmiş* |
| *Kesma* | *Kesme* | *Kəsmə* |

2. Qaqauz dilində saitlərin "ğ" və "q" samitləri ilə bitişməsi nəticəsində ikinci sait fonemlərin yaranması hadisəsi müşahidə olunur.

Qeyd etmək lazımdır ki, bu bitişmə qaqauz dili və digər oğuz qrupu dilləri üçün yalnız sözün əvvəlində və ortasında mümkündür. Açıq tipli hecalarda isə bəzən sözün sonunda da müşahidə olunur. [5. 48-50]

Ağ—aa; uğ—uu səs əvəzlənmələri qapalı hecalarda oğuz qrupu türk dillərində müşahidə olunmur. Beləliklə, sait-samit fonemlərin bitişərək uzun saitlərə çevrilməsi qaqauz dilində ağ, uğ hecalarında müşahidə olunur.

*aa—ağa, ığa, ağ*

| Qaqauz dili | Türk dili | Azərbaycan dili |
|---|---|---|
| *Aac* | *Ağac* | *Ağac* |

*ee—eqe, uqe, eqi*

| Qaqauz dili | Türk dili | Azərbaycan dili |
|---|---|---|
| *Eşee* | *Eşeğe* | *Eşşəyə* |

*oo—oğo, oğu, uğa, oğa*

| Qaqauz dili | Türk dili | Azərbaycan dili |
|---|---|---|
| *Booday* | *Boğuday* | *Buğda* |

*üü—üqü, üqi, üyü*

| Qaqauz dili | Türk dili | Azərbaycan dili |
|---|---|---|
| *Büük* | *Büyük* | *Böyük* |

*ıı—ıqi, üqi, üyü*

| Qaqauz dili | Türk dili |
|---|---|
| *Sıır* | *Sığır* |

3. "nl", "nd" səs birləşmələrinin "nn" səs birləşməsinə çevrilməsi.

| Qaqauz dili | Türk dili | Azərbaycan dili |
|---|---|---|
| *Onnar* | *Onlar* | *Onlar* |
| *Altınnarı* | *Altınları* | *Qızılları* |
| *Cannan* | *Candan* | *Candan* |

4. Qadın cinsi bildirən istənilən sayına slavyan dillərinə məxsus “-ka,-yka” formantlarının əlavə olunması

| Qaqauz dili | Türk dili | Azərbaycan dili |
|---|---|---|
| *Baldıs-ka* | *Baldıs* | *Baldız* |
| *Kanşuyka* | *Komşu kadın* | *Qonşu qadın* |

5. Feilin məsdər formasında sonuncu “k” səsinin düşməsi:

| Qaqauz dili | Türk dili |
|---|---|
| *qıtma* | *gitmek* |

6. Yönlük halın əvəzinə təsirlik halın işlənməsi:

| Qaqauz dili | Türk dili |
|---|---|
| *qıtmiş orayı* | *gitmiş oraya* |
| *nereyi qötürersen* | *nereye götürüyorsun* |

Burada əsasən a—ı və ə—i səslərinin yerdəyişməsi nəticəsində reduksiya baş verir.

7. Qaqauz dilinin leksikasına və sintaksisinə yunan, roman, slavyan dillərinin, xüsusilə bolqar və rus dillərinin böyük təsiri olmuşdur. Bu təsir yalnız leksikada və qrammatikada deyil, hətta söz sırasında da hiss olunur.

Balkan Türklərinin dili

Balkan yarımadasında yaşayan türk qəbilələri tarixən Oğuzların iki yarımqrupuna aiddir. Birinci yarımqrupda Şərqi Avropaya çox qədim dövrlərdə gəlmiş peçeneqlərin, uzların nəsilləridir. Qara dəniz və Xəzər dənizi sahillərindən şimala doğru irəliləyən Səlcuqların və Osmanlıların da nəsilləri Balkan türklərinin dillərinə öz təsirini göstərmişdir. Balkan yarımadasında Osmanlı hakimiyyəti dövründə Balkan türklərinin dilinə Osmanlı türkcəsinin böyük təsiri var idi. V.A. Moşkovun bölgüsünə görə Balkanlarda yaşayan bütün türk qəbilələri iki qrupa bölünür: Müsəlman türklər və xristian türklər.

Müsəlman türklərə Balkan yarımadasında yaşayan Osmanlılar, qadjallar, tozluklar, qızılbaşlar və yürüklər daxildir. Xristian türklərə isə Qaramanlılar, Qaqauzlar və Surquçlar daxildir. Lakin bu bölgünün Balkan türklərinin genetik və linqvistik qruplaşmasına heç bir dəxli yoxdur [5, s. 54-56].

**Məqalənin aktuallığı**. Oğuz qrupu türk dillərinə daxil olan qaqauz və türkmən dillərinin inkişaf tarixinin tədqiqi baxımından məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, mövzu ilə bağlı xarici ölkə tədqiqatçılarının apardığı əldə etdiyi nəticələrə istinad edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali məktəb müəllimləri, tələbə və magistrantlar, eləcə də doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Поцелуевский А.П. Диалекты туркменского языка. Ашхабад, 1989.
2. Кононов А.Н. Родословная туркмен, сочинение Абул-Гази Хана Хивинского. М.-Л., 1958.

3. A.N.Kurat. Peçeneq tarihi. İstanbul, 1937.
4. Мошков В.А. Материалы к изучению гагаузского наречия тюркского языка. Казань, 1995.
5. Мошков В.А. Турецкие племена на Балканским полуострове. Л., 2004.

**Г. Джебраилов**

## История эволюции и характерные особенности туркменского и гагаузского языков

## Резюме

Огузо-туркменская подгруппа языков сформировалась в среде западных огузских племенных языков тех древних огузских племен, которые после распада Тукюйского государства на Орхоне VIII в. пришли с Востока в районы, смежные с Приаральем.

Огузо-туркменская подгруппа языков исторически относится к наиболее ранней общности языков объединяет древний язык огузов, зарегистрированный Махмудом Кашкарским. К огузо-туркменской подгруппе относятся древний язык огузов X-XI вв.; современный туркменский язык и современный трухменский язык – язык ставропольских туркменов.

**G. Jabrailov**

## Evolution history and characteristic features of the gagauz and turkmen languages

## Summary

The Oguz-Turkmen subgroup was formed on the basis of the western ancient Oguz tribal languages. After the fall of the Tukyu state situated on the banks of the Orkhon River in the VIII century, these tribes migrated westward to the shores of the Aral Sea.

The Oguz Turkmen subgroup reflects the linguistic characteristics of the ancient Oguz tribal community, which is reflected in Mahmud Kashgarli's dictionary. This language is directly related to the Oguz language formed in the X-XI centuries. The Oguz-Turkmen subgroup includes the modern Turkmen language, the language of the Trukhmens living in the Stavropol region of the Russian Federation.

**Redaksiyaya daxil olub:** 23.10.2018